www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-12 (1816) 30 iyun 2025-ci il






## Universitetimizin böyük uğuru

### ATU nüfuzlu beynəlxalq reytinq cədvəlində iki istiqamət üzrə 200 pillə irəliləyib

səh. 2

### Tibb İşçilərinin Peşə Bayramı Günü qeyd edilib

səh. 2

### “Təbib” İstirahət Mərkəzində yeni korpusların açılışı olub

səh. 3

### Əməkdaşlarımız Finlandiyanın elmi-tədris müəssisələrində olub

səh. 4



### “ATUREK 13” konfransının qalibləri təltif edilib

Rektor, professor Gəray Gəraybəyli: Nüfuzlu jurnallarda elmi məqalələri dərc olunan magistr və rezidentlərə qonorar veriləcək

səh. 2

### Yay imtahan sessiyası uğurla yekunlaşır

*İmtahan prosesinin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar müsbət nəticələrini verməkdədir*

səh. 5

### Onurğamız - həyatımızın sütunudur

*Vaqif Cəlilov: Skoliozla yaşamaq çətin olsa da, düzgün müalicə və dəstək bir çox insanı normal həyata qaytarır*

səh. 7



### Böyük Elmi Şurada Dövlət Attestasiya Komissiyasının sədrləri hesabat verib

Rektor, professor Gəray Gəraybəyli fakültələr üzrə sədrlərə imtahanları uğurla başa çatdırdıqları üçün təşəkkür edib

səh. 3



## Tibb İşçilərinin Peşə Bayramı Günü qeyd olunub

**Ümummilli Lider Heydər Əliyevin 2001-ci il iyunun 4-də imzaladığı Sərəncama əsasən, hər il iyunun 17-si ölkəmizdə Tibb İşçilərinin Peşə Bayramı Günü kimi qeyd olunur.**

Tibb işçilərinin peşə bayramı ilə əlaqədar səhiyyə naziri Teymur Musayev, nazirliyin Aparatı və tabeliyindəki müəssisələrin rəhbər şəxsləri, o cümlədən Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın, böyük alim, ictimai-siyasi xadim, səhiyyə təşkilatçısı Əziz Əliyevin və tanınmış elm xadimi Tamerlan Əliyevin məzarları üzərinə də tər çiçəklər düzülüb.

Səhiyyə Nazirliyinin kollektivi, həmçinin Şəhidlər xiyabanını ziyarət edərək, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsini hörmət və ehtiramla yad edib.

# "ATUREK 13" konfransının qalibləri təltif edilib

## Rektor, professor Gəray Gəraybəyli: Nüfuzlu jurnallarda elmi məqalələri dərc olunan magistr və rezidentlərə qonorar veriləcək

**Xəbər verdiyimiz kimi, Azərbaycan Tibb Universitetinin 95 illik yubileyi və Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş Tibb Festivalı çərçivəsində "ATUREK 13" elmi-təcrübi konfransı keçirilib. İyunun 17-də isə universitetin rektoru, professor Gəray Gəraybəyli konfransda uğurlu çıxışları ilə fərqlənən rezident və magistrlərlə görüşüb.**



Rezidentura və magistratura şöbəsini müdiri, dosent İlhamə Mustafayeva konfransın təşkilində, məruzələrin hazırlanmasında və digər məsələlərin uğurla reallaşmasında həm universitet rəhbərliyi, həm də rezidentlərin böyük zəhməti olduğunu diqqətə çatdırıb, yeniliklər barədə məlumat verib.

"ATUREK 13" konfransında 20 magistr və 122 rezidentin məruzələrlə çıxış etdiyi, 240 tezisin çap olunduğu bildirilib.

Təltifolunma mərasiminin Tibb İşçilərinin Peşə Bayramı Gününə təsadüf etdiyini vurğulayan ATU-nun rektoru, professor Gəray Gəraybəyli qalibləri həm də peşə bayramları münasibətilə təbrik edərək, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Ölkəmizdə rezidentura təhsil pilləsinin yaradılmasının tibb təhsilinə verdiyi töhfələrdən danışan rektor, rezidenturanın sonuncu təhsil pilləsi olaraq ölkəmizdə yüksək ixtisaslı həkim-mütəxəssis hazırlığında xüsusi əhəmiyyət daşıdığını söyləyib. Bu sistemə keçidin vaxtilə ciddi müqavimətə rast gəldiyini də xatırladaraq, son illərdə rezidentura sahəsində çox böyük işlər görüldüyünü, yuxarı kurs rezidentlərinin artıq həkim kimi formalaşdığını deyib. Bununla belə, rezidentura pilləsinin yenidən təkmilləşdirilməsinin vacibliyinə toxunaraq, 7-8 il əvvəllə müqayisədə rezidentlərin elmi-tədqiqat işlərinə daha çox maraq göstərdiyini müsbət hal kimi dəyərləndirib.

Nüfuzlu jurnallarda elmi məqalələri dərc olunan magistr və rezidentlər üçün qonorar veriləcəyini də diqqətə çatdıran rektor, professor Gəray Gəraybəyli görüşün sonunda "ATUREK 13" elmi-təcrübi konfransında fərqlənən qaliblərə xüsusi diplom və hədiyyələr təqdim edib.

## ABŞ-da çalışan azərbaycanlı alim ATU-nun "Qonaq professor"u oldu



**ABŞ-da fəaliyyət göstərən tanınmış azərbaycanlı alim, tibb elmləri doktoru, professor Rauf Şahbazova universitetimizin "Qonaq professor"u sertifikatı təqdim olunub.**

Sertifikatı təqdim edən rektor, professor Gəray Gəraybəyli bildirib ki, doktor R.Şahbazov tibbi təhsil, tədqiqat və akademik əməkdaşlıq sahələrindəki töhfələrinə görə, bu fəxri ada layiq görülüb.

Görüş zamanı universitetlə birgə əməkdaşlıq imkanları, gələcəkdə həyata keçiriləcək təşəbbüslər və tibb təhsilinin inkişafı istiqamətində perspektivlər müzakirə olunub.

Professor R.Şahbazov ATU ilə bağlı səmimi təəssüratlarını dilə gətirərək, məzunu olduğu doğma universitetə fayda vermək, öz bilik və təcrübəsini bölüşə bilmək imkanının onun üçün böyük əhəmiyyət kəsb etdiyini bildirib.

Qeyd edək ki, Rauf müəllim hazırda ABŞ-ın Nyu-York ştatında yerləşən Albany Tibb Mərkəzinin Transplantologiya Cərrahiyyəsi Şöbəsinin rəhbəri kimi fəaliyyət göstərir. Onun ATU ilə əməkdaşlığı beynəlxalq təcrübənin Azərbaycana transferi baxımından mühüm əhəmiyyət daşıyır.

Görüşdə Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayev və İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Günel Aslanova da iştirak edirdi.

**Azərbaycan İdman Akademiyası (ASA) və Azərbaycan Tibb Universitetinin (ATU) nümayəndələri arasında görüş keçirilib.**

# İdman Akademiyası ilə əməkdaşlıq memorandumu imzalanıb

ATU-nun rektoru, professor Gəray Gəraybəyli və ASA-nın rektoru Fuad Hacıyevin rəhbərliyi ilə baş tutan görüşdə universitetimizin Tədris işləri üzrə prorektoru, professor Nazim Pənahov, Elmi işlər üzrə prorektor, professor Məlahət Sultan, Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayev, Tədris Departamentinin müdiri, dosent Kamandar Yaqubov, İctimai səhiyyə fakültəsinin dekanı, dosent Qalina Qəniyeva, İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Günel Aslanova, ASA-nın Tədris işləri üzrə prorektoru Ülkər Babayeva, onun müşaviri Zərifə Kamilova, Tədrisin planlaşdırılması və proqnozlaşdırılması departamentinin müdiri Nazim Abbasov, Beynəlxalq əməkdaşlıq və layihələrlə iş şöbəsinin müdiri Cəmilə İsmayılzadə, Sağlamlaşdırıcı idman və reabilitasiya kafedrasının müdiri Könül Məmmədova və MediaLab-ın meneceri Qoşqar Cəfərov iştirak ediblər.



Görüşdə iki ali təhsil müəssisəsi arasında əməkdaşlıq imkanları müzakirə olunub. Daha sonra tərəflər arasında qarşılıqlı anlaşma memorandumu imzalanıb.

Memoranduma ASA ilə ATU arasında elmi-tədqiqat sahəsində birgə layihələrin həyata keçirilməsi, multidissiplinar tədqiqatların təşviqi, innovasiyalar vasitəsilə yeni elmi nəticələrin əldə olunması, tədris proqramlarının yenilənməsi və qabaqcıl təhsil metodlarının tətbiqi daxildir.

Tələbə və müəllim mübadiləsi proqramlarının təşkili, qarşılıqlı təlim və təcrübə keçmə imkanlarının yaradılması, mövcud tədris resurslarından birgə istifadə, əhalinin sağlamlığını qorumaq məqsədilə sosial layihələrin həyata keçirilməsi, habelə idman və səhiyyə sahəsində müasir yanaşmaların təşviqi memorandumun əsas hədəflərindəndir.

Tərəflər beynəlxalq akademik və elmi əlaqələrin gücləndirilməsi, beynəlxalq layihələrdə birgə iştirak etməklə regional və qlobal səviyyədə təsir imkanlarının artırılması istiqamətində də əməkdaşlıq edəcəklər.

# Universitetimizin böyük uğuru

## ATU nüfuzlu beynəlxalq reytinq cədvəlində iki istiqamət üzrə 200 pillə irəliləyib

**Azərbaycan Tibb Universiteti nüfuzlu beynəlxalq "Times Higher Education" (THE) "Impact Rankings 2025" reytinq cədvəlində 200 pillə irəliləyib. ATU Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədləri üzrə həyata keçirdiyi fəaliyyətlərini beynəlxalq səviyyədə təsdiqləyərək iki istiqamət üzrə dünyanın ən reytinqli universitetləri arasında yer alıb.**

Belə ki, universitetimiz BMT-nin 3-cü Dayanıqlı İnkişaf Məqsədi (DİM) olan "Yaxşı səhiyyə və rifah" üzrə dünyanın 1788 universiteti arasında 301–400-cü qrupda, 4-cü DİM olan "Keyfiyyətli təhsil" üzrə isə dünyanın 1975 universiteti arasında 401–600-cü qrupda yer tutub. Qeyd edək ki, ötən ilin nəticələri ilə müqayisədə ATU reytinq cədvəlində hər iki istiqamət üzrə 200 pillə irəliləyib.

Azərbaycan Tibb Universiteti 3-cü DİM üzrə ölkəmizdə lider mövqeyini qoruyub saxlayır. "Yaxşı səhiyyə və rifah" istiqamətində əldə olunmuş yüksək nəticə ATU-nun tibb və səhiyyə sahəsində elmi nailiyyətlərini, klinik təcrübədə tətbiq olunan yenilikləri və ictimai səhiyyəyə verdiyi töhfəni əks etdirir. Müasir tibb kadrlarının hazırlanması, səhiyyə layihələrində aktiv iştirak bu uğurun əsasında dayanır.

4-cü DİM - "Keyfiyyətli təhsil" istiqamətində əldə edilən uğur ATU-da tədrisin müasirləşdirilməsi, rəqəmsal texnologiyaların tətbiqi və müəllim heyətinin inkişafına yönəlmiş fəaliyyəti əks etdirir. Bu addımlar tədris proqramlarının beynəlxalq standartlara uyğunlaşdırılmasına şərait yaradır və reytinqdə yüksəlişə zəmin yaradır.

Rektor, professor Gəray Gəraybəyli bu uğuru universitetin dayanıqlı inkişafa, təhsilin keyfiyyətinin yüksəldilməsinə, elmi tədqiqatların inkişafına və beynəlxalq akademik inteqrasiyaya verdiyi strateji önəmin göstəricisi kimi qiymətləndirir: "Times Higher Education" "Impact Rankings 2025" reytinqində qazandığımız bu uğur komandamızın birgə səylərini və qlobal məqsədlərə uyğun strategiyamızı bariz şəkildə əks etdirir. Bu mühüm nəticə bizi daha da böyük nailiyyətlərə ruhlandırır".

Xatırladaq ki, THE "Impact Rankings" reytinqi dünyanın ali təhsil müəssisələrini Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinə verdikləri töhfəyə əsasən qiymətləndirir və sosial məsuliyyət, elmi töhfə, təhsil təşəbbüsləri və tərəfdaşlıq aspektlərini əhatə edir. Bu reytinq yalnız akademik göstəriciləri deyil, həm də universitetlərin cəmiyyətə göstərdiyi real təsiri nəzərə alır.







**Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən I və IV ixtisas qrupları (eləcə də III qrup üzrə DT və TC altqruplarının hər ikisini seçənlər üçün coğrafiya fənni) üzrə 1 iyun 2025-ci il tarixində keçirilmiş qəbul imtahanının nəticələri elan olunub.**



## Respublika birincisi Azərbaycan Tibb Universitetində oxumaq istəyir

IV ixtisas qrupu üzrə ən yüksək nəticəni Aylin Xəlilova göstərib. O, maksimum nəticə olan 400 bal toplayaraq birinci mərhələdə fərqlənib. A.Xəlilova Bakı şəhəri 220 saylı məktəb-liseyin məzunudur. O hər iki imtahan mərhələsinin nəticələrinə əsasən 697.5 bal toplayaraq IV ixtisas qrupu üzrə respublika birincisi olub.

AzEdu.az saytı abituriyentlə əlaqə saxlayaraq təəssüratlarını öyrənib. O bildirib ki, Azərbaycan Tibb Universitetində "Müalicə işi" fakültəsində təhsil almaq istəyir.

"6 illik bakalavr təhsilimi Azərbaycanda almağı düşünürəm. ATU-nu bitirdikdən sonra uzmanlıq üçün isə hələlik Almaniyanı nəzərdə tutmuşam, amma bunu da gələcək göstərəcək. Ancaq mütləq xaricdə təhsil alıb, ölkəmə qayıtmaq istəyirəm", - Aylin qeyd edib.

# Böyük Elmi Şurada Dövlət Attestasiya Komissiyasının sədrləri hesabat verib

## Rektor, professor Gəray Gəraybəyli fakültələr üzrə sədrlərə imtahanları uğurla başa çatdırdıqları üçün təşəkkür edib

**ATU-nun Böyük Elmi Şurasının 2024/2025-ci tədris ilində sonuncu iclası iyunun 25-də Nabranda yerləşən "Təbib" İstirahət Mərkəzində keçirilib. Toplantını giriş nitqi ilə açan rektor, professor Gəray Gəraybəyli hər tədris ilinin sonuncu Elmi Şurasının burada keçirilməsinin həm də rəmzi məna daşıdığını deyib.**



Rektor giriş nitqində "Times Higher Education Impact Rankings" reytinqində mühüm irəliləyş əldə edən universitetimizin gələn il dünya reytinqinin minliyinə daxil olacağına əminliyini də vurğulayıb və gündəlikdə duran məsələləri diqqətə çatdırıb.

Bundan sonra Azərbaycan Tibb Universiteti üzrə 2024/2025-ci tədris ilində Dövlət Attestasiya Ko-



missiyası sədrlərinin hesabatları dinlənilib və gənc mütəxəssislərin hazırlanması işinin daha da yaxşılaşdırılması üçün universitet kollektivinin vəzifələri müzakirə olunub.

Buraxılış Dövlət Attestasiya Komissiyasının I Müalicə-profilaktika fakültəsi üzrə sədr müavini, professor Aytən Məmmədbəyli, II Müalicə-profilaktika fakültəsi üzrə sədri, Milli Onkologiya Mərkəzinin baş direktorunun müavini, t.e.d. Fuad Quliyev, Hərbi tibb fakültəsi üzrə sədr müavini, tibb xidməti polkovniki Qismət Hətəmov, Stomatologiya fakültəsinin yekun qiymətləndirmə üzrə komissiya sədri, fakültə dekanı dosent Elmira Əliyeva, İctimai səhiyyə fakültəsinin tibbi-profilaktika ixtisası üzrə yekun qiymətləndirmə komissiyasının sədr müavini, professor İbadulla Ağayev və həmin fakültənin tibb bacısı işi, fizioterapiya və tibbi reabilitasiya, ictimai səhiyyə ixtisasları üzrə yekun qiymətləndirmə komissiyasının sədri, fakültə dekanı dosent Qalina Qəniyeva, Əczaçılıq fakültəsinin bakalavr pilləsində yekun qiymətləndirmə üzrə komissiyanın sədri, fakültə dekanı dosent Fərəh Mədətli hesabat məruzəsi ilə çıxış ediblər.

Hesabatlarda Yekun Dövlət Attestasiya İmtahanlarının nəticələri öz əksini tapıb. Belə ki, I və II Müalicə-profilaktika fakültələrində Yekun Dövlət Attestasiyası "Cərrahi xəstəliklər", "Mamalıq və ginekologiya" və "Daxili xəstəliklər" ixtisasları üzrə aparılıb. Hər üç ixtisas üzrə beynəlxalq standartlara uyğun olaraq Obyektiv Strukturlaşdırılmış Klinik İmtahan (OSKİ) ötən ildəki kimi, Seçenov adına birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının Simulyasiya Mərkəzində baş tutub. Müvafiq ixtisasların nəzəri hissələri isə İmtahan Mərkəzində keçirilib və sonda hər fənn üzrə bacarıq imtahanı ilə test imtahanlarının nəticələri toplanaraq tələbənin imtahan nəticəsi müvafiq qaydada 100 ballıq sistemlə qiymətləndirilib.

O da bildirilib ki, artıq bu ildən Stomatologiya, Əczaçılıq və İctimai səhiyyə fakültələrinin sonuncu kurslarında sonuncu imtahanlar testlə deyil, şifahi şəkildə aparılır və bu yenilik tələbələr tərəfindən razılıqla qarşılanır.

Bu il "İctimai səhiyyə" ixtisası üzrə ilk buraxılışın olduğu bildirilib. Həmçinin qeyd olunub ki, hər istehsalat təcrübəsinin yekun qiymətləndirməsi bu il yeni formatda və 2 mərhələdə, yəni 50 ballıq şifahi imtahan və 50 ballıq OSKİ/OSPİ formasında aparılıb.

Stomatologiya fakültəsində yekun qiymətləndirmə imtahanlarının nəticələri və gedişatı haqqında da şura üzvlərinə məlumat verilib. Fakültədə yekun qiymətləndirilmə imtahanlarının 2 mərhələdə keçirilildiyi, hər iki mərhələdə (nəzəri və təcrübi) tələbələrin minimum 17, maksimum 50 bal ilə qiymətləndirildiyi vurğulanıb.

Hərbi tibb fakültəsində tədris planında nəzərdə tutulmuş imtahan və məqbulları verdiklərinə görə 48 nəfər kursant "Hərbi həkim işi" ixtisası üzrə Buraxılış Dövlət imtahanlarına, Hərbi feldşer hazırlığı kursunun 45 nəfər kursantı isə təhsil proqramı ilə müəyyən edilmiş təcrübənin qiymətləndirilməsinə buraxılıb.

Dövlət Attestasiya Komissiyasının və yardımçı komissiyaların tərkibi əsas etibarilə idarəetmə orqanlarının rəisləri, tibb xidmətinin aparıcı mütəxəssisləri, Hərbi tibb fakültəsinin professor-müəllim heyəti sırasından peşəkar zabit və qulluqçulardan təyin olunub, imtahanlar müvəffəqiyyətlə aparılıb, şikayət və narazılıqlar olmayıb.

Əczaçılıq fakültəsinin bakalavr pilləsi üzrə 2024/2025-ci tədris ilində yekun qiymətləndirilmə prosesi istehsalat təcrübələrinin nəticələrinə əsasən aparılıb. Bu mərhələdə qiymətləndirmə aptekdə, xəstəxana aptekində və əczaçılıq sənayesində istehsalat təcrübələri olmaqla üç əsas istiqamət üzrə həyata keçirilib. Bakalavr pilləsi üzrə umumilikdə 95 nəfər (56 yerli və 39 əcnəbi tələbə) buraxılış imtahanlarını müvəffəqiyyətlə başa vuraraq "əczaçı-bakalavr" adı almağa layiq görülüb.



Hesabatlarda bütün fakültələr üzrə yekun imtahanların ümumi mənzərəsi göstərilib. Eyni zamanda buraxılışa dair statistik məlumatlar, o cümlədən fərqlənmə diplomuna layiq görülən tələbələrin statistikası açıqlanıb.

Komissiya sədrləri qeyd ediblər ki, Buraxılış Dövlət imtahanları mövcud əsasnaməyə uyğun olaraq problemsiz, şəffaf şəkildə aparılıb və burada nəzərdə tutulan bütün qaydalara əməl olunub. İmtahanların rahat və şəffaf aparılması üçün yaradılan şəraitə görə universitetin rəhbərliyinə, şəxsən ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə təşəkkürlərini bildirən komissiya sədrləri, eyni zamanda fakültə dekanlarının da imtahan prosesindəki aktiv fəaliyyətlərini yüksək qiymətləndiriblər. Onlar imtahanların gedişi zamanı heç bir neqativ hadisənin baş vermədiyini diqqətə çatdırıblar.

Hesabat çıxışlarına yekun vuran rektor Gəray Gəraybəyli fakültələr üzrə sədrlərə imtahanları uğurla başa çatdırdıqları üçün təşəkkürünü bildirib.

Hesabatlar yekunlaşdıqdan sonra gündəlikdə duran digər məsələlərə baxılıb.

2025/2026-cı tədris ili üçün Azərbaycan Tibb Universitetinin tədris planlarını və iş planını təsdiqləyən Elmi Şura əcnəbi təhsilalanların müsahibəsi üçün nəzərdə tutulmuş ödənişin 70 dollardan 100 dollara qaldırılması, ATU-nun büdcədənkənar vəsaiti hesabına Tədris Terapevtik Klinikaya yardım edilməsi, Patoloji anatomiya kafedrasının adının dəyişdirilərək "Patologiya" kimi adlandırılması barədə məsələlərə də münasibət bildirib. Eyni zamanda İctimai səhiyyə fakültəsinin nəzdində fəaliyyət göstərən Ağciyər xəstəlikləri kafedrasının II Müalicə-profilaktika fakültəsinin tabeliyinə, II Müalicə-profilaktika fakültəsinin nəzdində fəaliyyət göstərən Tibbi və bioloji fizika kafedrasının isə İctimai səhiyyə fakültəsinin tabeliyinə verilməsi qərara alınıb. Həmçinin Azərbaycan Tibb Universitetinin dünya reytinqlərində daha yüksək mövqe tutması və beynəlxalq standartlara uyğun inkişaf etməsi məqsədilə İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin nəzdində ictimai əsaslarla SDG (Sustainable Development Goals – Dayanıqlı İnkişaf Məqsədləri) klubunun yaradılmasını məqbul sayılıb. Bundan əlavə, "Beynəlmiləlləşmə sahəsində yaxın və orta müddətli hədəflərə müvafiq Strateji Fəaliyyət Planı (2025-2030)", ATU-ya institusional akreditasiyanın verdiyi tövsiyələrin icrası məqsədilə hazırlanmış sənədlər təsdiqlənib.

Daha sonra "Azərbaycan Tibb Universitetinin Jurnalı"nda məqalələrin qəbulunun ödəniş məbləğinin müəyyən edilməsini təsdiqləyən Elmi Şura, Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanmış metodik vəsaitlər və Milli Hematologiya və Transfuziologiya Mərkəzi tərəfindən hazırlanmış kitabın, dərslik, dərs vəsaitləri, metodik vəsaitlərin nəşrinə razılıq verməklə öz işini yekunlaşdırıb.

Növbəti tədris ilində universitetdə bir sıra yeniliklərin olacağını nəzərə çatdıran rektor, professor G.Gəraybəyli ATU-nun çoxminli kollektivinə tətil dövründə mənalı istirahət arzulayıb.

**Arif MƏMMƏDLİ**

# "Təbib" İstirahət Mərkəzində yeni korpusların açılışı olub







Böyük Elmi Şuranın Nabranda keçirilən iclası çərçivəsində "Təbib" İstirahət Mərkəzində iki yeni korpusun açılışı olub. Tədbirdə çıxış edən rektor, professor Gəray Gəraybəyli istirahət mərkəzinin daim diqqətdə saxlanılmasını universitet rəhbərliyinin sosial siyasətinin mühüm tərkib hissəsi kimi dəyərləndirib.

O hər il yeni korpusların əsaslı şəkildə təmir olunduğunu, yüksək komfortlu şəraitlə təmin edildiyini, ərazidə mütəmadi abadlıq işləri aparıldığını bildirib. Əlavə edib ki, universitet rəhbərliyi gələcəkdə də bu istiqamətdə işi davam etdirəcək, əməkdaşların sağlam və rahat istirahətinin təşkili üçün ardıcıl tədbirlər həyata keçirəcək.

Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov mərkəzdə görülən işlər barədə ətraflı məlumat verib. Onun sözlərinə görə, "Təbib" İstirahət Mərkəzində həyata keçirilən abadlıq və yenidənqurma işləri 2013-cü ildən etibarən HİK-in maliyyə dəstəyi ilə təmin olunur. Yeni korpuslarda istirahət edənlərin rahatlığı üçün zəruri avadanlıqlar, müasir şərait yaradılıb.

Qeyd edək ki, hər il burada yüzlərlə əməkdaşımız - professor-müəllim heyəti, texniki işçilər, onların ailə üzvləri və tələbələr istirahət etmək imkanı qazanır.

# Əməkdaşlarımız Finlandiyanın elmi-tədris müəssisələrində olub



**Bu günlərdə Helsinki və Turku universitetlərinin Stomatoloji institutlarını ziyarət edən Azərbaycan Tibb Universitetinin nümayəndə heyəti ATU ilə Finlandiya ali təhsil müəssisələri arasında elmi və praktik əməkdaşlıq imkanlarını nəzərdən keçiriblər.**

Səfərin əsas məqsədi həmin təhsil müəssisələrində stomatoloji fakültənin iş prinsipləri, tədris prosesi zamanı istifadə edilən texniki təchizat, müasir laboratoriyalar və stomatoloji tədris bazalarının potensialı ilə tanışlıq və elmi-tədqiqat sahəsində birgə fəaliyyət imkanlarının araşdırılması olub.

Tədris işləri üzrə prorektor, Ortopedik stomatologiya kafedrasının müdiri, professor Nazim Pənahov və Tədris Stomatoloji Klinikanın direktoru, tibb üzrə fəlsəfə doktoru İmran Ağayev stomatoloji avadanlıq istehsal edən aparıcı şirkətlərdən birinə baş çəkərək, rəqəmsal stomatologiya sahəsində tətbiq edilən müasir texnologiyalar və onların praktik əhəmiyyəti ilə tanış olublar. Bu texnologiyaların universitetimizdə tətbiqi və tədris prosesinə inteqrasiyası ilə bağlı ilkin fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində aparılan müzakirələr nəticəsində əldə olunan təcrübənin Azərbaycan Tibb Universitetində təhsil alanlar üçün əlçatan edilməsi, onların beynəlxalq standartlara uyğun mühitdə təhsil almalarına əlverişli şərait yaradılması əsas prioritetlərdən biri kimi vurğulanıb.

# Universitetimiz Qlobal Dayanıqlı İnkişaf Konqresində təmsil edilib

## Nüfuzlu tədbirin iştirakçıları ATU-nun stendini maraqla qarşılayıb

**16-19 iyun tarixlərində Türkiyənin İstanbul şəhərində Qlobal Dayanıqlı İnkişaf Konqresi (Global Sustainable Development Congress) keçirilib. Dünya miqyaslı tanınmış və nüfuzlu ali təhsil qurumlarını bir araya gətirən konqresdə Azərbaycan Tibb Universiteti də öz stendi ilə iştirak edib.**




Elmi işlər üzrə prorektor, professor Məlahət Sultan və Tərbiyə işləri üzrə prorektor, dosent Mahir Səfərovun iştirak etdiyi bu mühüm beynəlxalq tədbir çərçivəsində ATU-nun stendində universitetin dayanıqlı inkişafla bağlı həyata keçirdiyi təhsil və elmi-tədqiqat layihələri, beynəlxalq tərəfdaşlıq proqramları, yaşıl kampus təşəbbüsləri, eləcə də iqlim dəyişikliyinə uyğunlaşma sahəsində atdığı addımlar ziyarətçilərin diqqətinə çatdırılıb.

Dörd gün ərzində universitetimizin nümayəndə heyəti bir sıra plenar iclaslar, panel müzakirələri və şəbəkələşmə sessiyalarında iştirak edib. Eləcə də tədbirdə təmsil olunan digər ali təhsil müəssisələrinin nümayəndələri ilə potensial tərəfdaşlıq imkanları müzakirə edilib, birgə layihələr və mübadilə proqramları üzrə danışıqlar aparılıb.

Qeyd edək ki, "Times Higher Education" (THE) reytinq agentliyi və Türkiyənin Ali Təhsil Şurası (YÖK) tərəfindən birgə təşkil olunan konqresin məqsədi ali təhsil ocaqları, tədqiqat institutları, dövlət qurumları və qeyri-hökumət təşkilatları arasında BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri (DİM) istiqamətində görülən işləri təqdim etməkdən ibarət olub.

ATU-nun bu konqresdə fəal iştirakı Azərbaycanın ali təhsil sisteminin qlobal gündəmdəki mövqeyinin möhkəmləndirilməsinə, universitetin beynəlxalq tanıtımının artırılmasına və dayanıqlı inkişaf məqsədlərinə töhfə verən təşəbbüslərinin beynəlxalq ictimaiyyətə çatdırılmasına xidmət edir. Bu cür tədbirlər, həmçinin universitetimizin beynəlxalq elmi-akademik şəbəkəyə daha sıx inteqrasiyası üçün yeni imkanlar yaradır.

# İşçi qrupun növbəti iclası keçirilib

**Elm və Təhsil Nazirliyində ali təhsilin bakalavriat (əsas (baza ali tibb təhsili) və magistratura səviyyələri üzrə yeni təhsil proqramlarının hazırlanması məqsədilə yaradılmış komissiya fəaliyyətinin davam etdirir.**



Azərbaycan Tibb Universitetində komissiyanın tərkibində formalaşdırılmış təhsil ixtisasları qrupu üzrə işçi qrupun növbəti iclası keçirilib.

İclasda Tədris işləri üzrə prorektor, professor Nazim Pənahov çıxış edib. O, iclasda fizioterapiyanın ixtisaslaşmaları - nevrologiyada fizioterapiya, ortopediyada fizioterapiya, pediatriyada fizioterapiya, protez-ortopediya, idmanda fizioterapiya ixtisaslaşmaları və tədris proqramının hazırlanması istiqamətində görülən işlərlə bağlı müzakirələrin olacağını diqqətə çatdırıb.

Tədris Departamentinin müdiri, dosent Kamandar Yaqubov işçi qrupunun bu günədək olan fəaliyyətindən danışıb. Bildirib ki, Elm və Təhsil Nazirliyinin tələbi ondan ibarətdir ki, magistratura pilləsində kadr hazırlanması üçün tədris proqramları, universitetin tədris bazası, müəllim fondu və s. müasir standartlara cavab verməlidir: "Bununla bağlı universitetin rektoru, professor Gəray Gəraybəylinin konkret göstərişi ondan ibarət olub ki, hazırlanan tədris proqramı bütün göstəricilərə cavab verdikdən sonra həmin ixtisaslaşmalara plan yerləri üzrə müraciət olunsun. Bu səbəbdən fizioterapiya ixtisası ilə bağlı işimizi yekunlaşdıraraq, lazımi sənədləri Elm və Təhsil Nazirliyinin müvafiq şöbəsinə təqdim etmək niyyətindəyik".

# ATU alimlərinin daha bir uğuru

**Xəbər verdiyimiz kimi, ATU-nun I Cərrahi xəstəliklər kafedrasının əməkdaşları Türkiyə, Gürcüstan, Qazaxıstan və Özbəkistandan olan həmkarları ilə birlikdə Transxəzər Beynəlxalq Hepato-Pankreato-Biliar Cərrahiyyə Assosiasiyasını (Trans-Caspian İHPBA) təsis ediblər. Ölkəmizdə rəsmi qeydiyyatdan keçmiş İHPBA-nın fəaliyyətində bu günlərdə mühüm irəliləyiş baş verib.**

Belə ki, yeni yaradılmış Transxəzər bölməsi 10-12 iyun 2025-ci il tarixində İrlandiyanın paytaxtı Dublin şəhərində keçirilmiş Avropa-Afrika HPB Assosiasiyasının (E-AHPBA) 16-cı Bienal (iki ildə bir keçirilən) Konqresində Nailiyyət Sertifikatı ilə rəsmi ola raq tanınıb.

Sertifikat Transxəzər regionunda HPB cərrahiyyəsinin inkişafında mühüm mərhələni qeyd edir. Bu tanınma üzv ölkələr arasında HPB cərrahiyyəsində əməkdaşlığın təşviq edilməsi, klinik təcrübənin irəlilədilməsi, təhsil və tədqiqatın dəstəklənməsi üzrə öhdəlikləri nəzərdə tutur.

İHPBA-nın prezidenti, ATU-nun I Cərrahi xəstəliklər kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, professor Nuru Bayramov mövzu ilə bağlı açıqlamasında bildirib ki, bu nailiyyət regional




cərrahiyyə cəmiyyətinin artan təcrübəsini və fədakarlığını vurğulayır: "Qlobal HPB şəbəkəsinə qoşulmaqdan və cərrahi xidmətin gələcəyinin formalaşmasına töhfə verməkdən şərəf duyuruq".

# Loğman Hekim Universitetinin nümayəndəsi qonağımız olub

**Azərbaycan Tibb Universiteti Türkiyənin aparıcı ali təhsil ocaqları ilə qarşılıqlı əməkdaşlığı yüksək səviyyədə davam etdirir. Bu əməkdaşlıq çərçivəsində Loğman Hekim Universitetinin İctimaiyyətlə əlaqələr şöbəsinin korporativ brend mütəxəssisi Damla Lafcı ATU-nun İctimaiyyətlə əlaqələr şöbəsində praktika keçib, bu strukturun fəaliyyəti ilə yaxından tanış olub.**



Qonaqla görüşən Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayev ona universitet, eləcə də beynəlxalq əlaqələrimiz haqqında geniş məlumat verib: "Hazırda Azərbaycan Tibb Universitetində 53 ölkədən 2600 əcnəbi tələbə və rezident təhsil alır. Bunlar sırasında Türkiyə, Pakistan, Böyük Britaniya, ABŞ, Rusiya, İsrail, Nigeriya, Banqladeş, Hindistan, İraq, İran, Suriya və s. ölkələri qeyd etmək olar. Universitetimizdə təhsil alan əcnəbilər arasında saya görə birinci yeri Türkiyədən olan tələbə və rezidentlər tutur. Qürurverici haldır ki, ATU əcnəbi təhsilalanların sayına görə ölkəmizdə birinci yerdədir".

İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Günel Aslanova universitetin fəaliyyətinin hərtərəfli işıqlandırılması, bu işdə müasir texnologiyalardan necə istifadə olunması, eyni zamanda sosial şəbəkələr istiqaməti haqda danışıb. Hər iki təhsil müəssisəsinin İctimaiyyətlə əlaqələr şöbələrinin əməkdaşlıq istiqamətləri, birgə layihələr barədə fikir mübadiləsi aparılıb.

Damla Lafcı tanışlıq üçün yaradılan şəraitə və qonaqpərvərliyə görə təşəkkür edib, nümayəndəsi olduğu universitet, tədris prosesi haqqında məlumat verib. Bildirib ki, hazırda Loğman Hekim Universitetində 4015 tələbə təhsil alır.

Görüşün sonunda qonağa sertifikat verilib.

Qeyd edək ki, 3 günlük praktika ərzində D.Lafcı universitetin orqanı olan "Təbib" qəzetinin redaksiyasına, Anatomiya muzeyi, simulyasiya mərkəzlərinə baş çəkib, eləcə də Bakını gəzib.

**Məlum olduğu kimi, ATU ilə Qazaxıstan Respublikasının bir sıra universitetləri arasında əməkdaşlıq memorandumları imzalanıb. Bu çərçivədə Marat Ospanov adına Qərbi Qazaxıstan Tibb Universitetinin əməkdaşları - Histologiya kafedrasının müdiri, t.ü.f.d. Janat Komekbay akademik mobillik proqramı üzrə, kafedranın doktorantları Kuanış Baytenov və Altınay Jurqenova isə elmi işlərinin bir hissəsinin yerinə yetirilməsi və elmi məsləhətlərin alınması məqsədilə ATU-nun Sitologiya, embriologiya və histologiya kafedrasında və Elmi Araşdırmalar Mərkəzinin Elektron mikroskopiya şöbəsində fəaliyyət göstəriblər.**

# Qazaxıstanlı alimlər ATU-da elmi fəaliyyət göstərib



Səfər müddətində J.Komekbay kafedrada mühazirə oxuyub, tədris proqramları ətrafında geniş müzakirələr aparıb və elmi təcrübələrini bölüşüb. Doktorantlar Elektron mikroskopiya şöbəsində öz doktorluq proqramı üzrə yerinə yetirdikləri elmi tədqiqatlarına aid olan materiallar əsasında nümunələrdən araldit-epon bloklarının hazırlanması, yarım (1 mkm) və ultranazik (50-70 nm) kəsiklərin alınması, boyanması və TEM vasitəsilə çəkilməsi prosesini tam şəkildə mənimsəyiblər. Sonda hər üç qonağa sertifikatlar verilib.

Qeyd edək ki, adıçəkilən tədqiqatçıların rəsmi xarici elmi məsləhətçiləri ATU-nun Sitologiya, embriologiya və histologiya kafedrasının müdiri, professor Eldar Qasımov və EAM-ın Elektron mikroskopiya şöbəsinin müdiri, dosent Fuad Rzayevdir. Qazaxıstanlı və ATU-nun alimlərinin daxil olduğu beynəlxalq əməkdaşlıq çərçivəsində əldə edilmiş nəticələrin Web of Science və Scopus bazalarına daxil olan yüksək impakt faktorlu jurnallarda dərci nəzərdə tutulur.

# Universitetimiz “QS Higher Ed Summit: Europe 2025” konfransında




**16-18 iyun tarixlərində Portuqaliyanın Porto şəhərində keçirilmiş “QS Higher Ed Summit: Europe 2025” konfransında universitetimiz uğurla təmsil olunub.**

Əsas məqsədi Avropada ali təhsilin qlobal cazibəsini gücləndirmək, yeni strategiyalar formalaşdırmaq və universitetlər arasında əməkdaşlıq imkanlarını genişləndirməkdən ibarət olan bu nüfuzlu beynəlxalq tədbirdə ATU-nu təsərrüfat işləri üzrə prorektor İlqar Mehrabov təmsil edib.

QS (Quacquarelli Symonds) reytinq agentliyi tərəfindən təşkil edilmiş sammit "Üfüqləri genişləndirmək: təhsil mükəmməlliyi ilə qlobal cəlbediciliyin artırılması" mövzusuna həsr olunub. Tədbirdə dünyanın 60-dan çox ölkəsindən 300-dən artıq ali təhsil müəssisəsinin rəhbər şəxsləri, akademik mütəxəssislər, tədqiqatçılar və siyasətçilər iştirak edib.

Prorektor İlqar Mehrabov tədbir çərçivəsində keçirilən plenar sessiyalarda, tematik panel müzakirələri və şəbəkələşmə görüşlərində, sərgidə fəal iştirak edib. O, universitetin infrastruktur inkişafı, dayanıqlı kampus strategiyası və yaşıl transformasiya sahəsindəki təcrübəsini tədbir iştirakçıları ilə bölüşüb. Konfransın sərgi hissəsində İ.Mehrabov universitetə dair məlumatları təqdim edib, həmçinin bir sıra universitet və təşkilat nümayəndələri ilə faydalı görüşlər keçirib, potensial əməkdaşlıqlar, birgə tədqiqat və mübadilə proqramları ilə bağlı ilkin razılaşmalar əldə olunub.

Qeyd edək ki, QS reytinq cədvəli universitetin dünyada nüfuzu, məzunların işlə təmin olunması, beynəlxalq əlaqələr, müəllim-tələbə nisbəti, elmi nəşrlər, xarici tələbə və müəllimlərin faizi kimi meyarlara görə formalaşdırılır.

Universitetimizin beynəlxalq strategiyasına uyğun olaraq, bu cür tədbirlər ATU-nun qlobal elm və təhsil məkanında nüfuzunun möhkəmlənməsinə, eləcə də Azərbaycanın ali təhsil sisteminin beynəlxalq platformalarda tanıdılmasına xidmət edir.

**İyunun 13-16-da Birləşmiş Krallığın (Şotlandiya) Qlazqo şəhərində Avropa Allerqologiya və Klinik İmmunologiya Akademiyasının illik (EAACİ 2025) konqresi keçirilib.**

# Əməkdaşlarımız Qlazqo şəhərində keçirilən konqresdə iştirak edib

Tibbin çox mühüm bir sahəsi olan allerqologiya və immunologiyanın aktual problemlərinə həsr edilən mötəbər konqresə dünyanın müxtəlif qitələrindən 5 minə yaxın mütəxəssis və alim qatılıb. Tədbirdə universitetimizin əməkdaşları da iştirak edib.

ATU-nun nümayəndələri plenar sessiyalar və bölmə iclaslarında allergik xəstəliklərin müasir diaqnostikası, immunoterapiyanın gələcək perspektivləri və digər aktual mövzularda təqdimatlarla çıxış ediblər. Allergologiya və immunologiya kafedrasının müdiri, professor Lalə Allahverdiyeva, dosent Ülkər Hümbətova immünoassay metodlarının effektivliyi barədə təcrübələri paylaşıb, assistent Həmidə Ağarəhimovanın məruzə və təqdimatları tədbir iştirakçılarının diqqətini çəkib. II Uşaq xəstəlikləri kafedrasının dosenti Məleykə Kərimovanın da iştirak etdiyi konqres çərçivəsində müxtəlif ölkələrin allerqologiya və klinik immunologiya cəmiyyətlərinin nailiyyətlərini əks etdirən stendlər nümayiş olunub, həmçinin il ərzində nüfuzlu jurnallarda dərc olunan allerqologiya və immunologiyaya dair ən uğurlu məqalələr konqres iştirakçılarının nəzərinə çatdırılıb.

Nümayəndələrimiz bir sıra Avropa universitetləri və tədqiqat institutlarının mütəxəssisləri ilə ikitərəfli görüşlər keçirib. Görüşlər zamanı gələcəkdə birgə tədqiqat layihələri, təhsil mübadiləsi proqramları və konfrans təşkilatçılığı sahəsində əməkdaşlıq imkanları müzakirə olunub.




Azərbaycan Tibb Universitetinin bu cür nüfuzlu beynəlxalq konqresdə iştirakı ölkəmizin səhiyyə elminin dünya standartlarına inteqrasiyasını sürətləndirir, müasir allergologiya və immunologiya sahəsində vaksinasiyadan tutmuş, təcili yardım protokollarına qədər elm və praktikanı birləşdirən yeni əməkdaşlıq yolları açır.

# Yay imtahan sessiyası uğurla yekunlaşır

## İmtahan prosesinin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar müsbət nəticələrini verməkdədir

**Azərbaycan Tibb Universitetində yaz semestrinin yay imtahan sessiyası başa çatmaq üzrədir. İmtahan prosesinin təkmilləşdirilməsi ilə bağlı bu ilin fevralından etibarən bir sıra yeniliklər və islahatlar aparılıb. Bəs bu islahatların müsbət nəticələri hansılardır? Bu barədə ətraflı məlumat əldə etmək üçün ATU-nun İnformasiya Texnologiyaları Departamentinin rəhbəri, rektorun müşaviri Rəmzi Əliyevlə əlaqə saxladıq.**



R.Əliyev bildirdi ki, bu ilin fevralında keçirilən Elmi Şuranın qərarı ilə İmtahan Mərkəzi bir qurum kimi ləğv edilərək, şöbə formatında departamentin tabeliyinə verilib: “Heç şübhəsiz, aparılan yeniliklər öz müsbət nəticəsini verdi. Belə ki, əvvəllər İmtahan Məkəzinin əməkdaşları imtahan zamanı zallarda oturururdular. Tələbələrdən kimsə istər-istəməz əməkdaşlara yaxınlaşır, problemlərini söyləyirdi. Bu da nə qədər olmasa, zalda səs-küyə səbəb olur, kiminsə diqqətini yayındırırdı. Hazırda bu cür hallar aradan qaldırılıb. Zallara giriş-çıxış bağlanıb. Orada nəzarətçilərdən başqa kimsə yoxdur. Amma zərurət yaranarsa, zallara dekanlar və prorektorlar daxil ola bilər”.



Yeniliklərdən biri də budur ki, zallarda müasir müşahidə kameraları quraşdırılıb. Və kameralar hərəkətdə olan insanları qeydə alır. Əgər tələbə imtahan zalına üzərində hansısa qadağan olunmuş cihaz və ya vərəqələr gətirib, onlardan istifadə etmək istəyərsə, kameralar ona doğru tuşlanır: “Bundan əlavə, rektor, Tədris işləri üzrə prorektor, dekanlar və mənim imtahanı canlı şəkildə izləmək imkanlarımız var. Yəni ki, imtahan prosesi bir yox, bir neçə səlahiyyətli şəxsin nəzarətindədir. Bu da öz növbəsində, imtahanın şəffaf şəkildə keçməsinə təsir göstərir”.

Departament rəhbəri qeyd etdi ki, artıq imtahan prosesinə hərtərəfli nəzarət təmin olunub və hətta əgər cədvəldə hansısa dəyişiklik edilərsə, bu barədə öncədən bütün səlahiyyətli şəxslər xəbərdar olur: “Biz dekanlarla işləyir, ekspertlərdən köhnə sualların yenilənməsini tələb edirik. Bir məqamı diqqətinizə çatdırım ki, aralıq imtahanlarından sonra imtahana düşən suallarla bağlı araşdırma apardıq. Sualların doğruluq və asanlıq yükünü, imtahanda neçə dəfə düşməsini müəyyənləşdirdik. Elə suallar vardı ki, səhv olduğu yazılışından belə aydın görünürdü.

Əvvəllər qüsurlu suallar haqda yalnız tələbələr apellyasiya şikayəti edəndə xəbər tuta bilirdik. İndi isə xüsusi proqram vasitəsilə bunu öncədən ayırd etmək mümkün olur. Elə bu imtahan sessiyası öncəsi xeyli qüsurlu suallar aşkar edib bazadan çıxarılmasına nail olmuşuq”.

R.Əliyev dəyişikliklər sayəsində Apellyasiya Komissiyasına edilən şikayətlərin sayının iki dəfədən çox azaldığını da bildirdi. Bunu onunla izah etdi ki, sualları hazırlayıb bazaya təqdim edən ekspertlərə onların doğruluğu ilə bağlı imza atdırılır. Bu da ekspertlərin öz işinə daha məsuliyyətli yanaşmasına səbəb olur: “Çalışırlar ki, bizə doğru sualları təqdim etsinlər. Çünki sabah suallarla bağlı hansısa problem yaranarsa, birbaşa ekspert cavabdehlik daşıyır. Ona görə də bazaya yerləşdirilən suallar arasında qüsurlu olanlar azlıq təşkil edir. Əgər qüsurlu suallar çox olarsa, onları təqdim edən ekspert(lər) başqası ilə əvəzlənə bilər. Onu da qeyd edim ki, tələbələrin imtahanlara gecikməsi hallarının qarşısı, demək olar ki, alınıb. Yeni qaydalara görə, imtahana gecikən tələbə artıq bilir ki, onun vaxtından gedir. Nəticədə, bu semestr gecikmə hallarına çox az rast gəlindi”.

İnformasiya Texnologiyaları Departamentinin İmtahan şöbəsinin müdiri Cəmilə Quliyeva semestr imtahanlarının mayın 31-dən etibarən başladığını və prosesin iyulun 1-dək davam edəcəyini bildirdi: “Şöbəmiz cədvələ uyğun olaraq, imtahanların keçirilməsini təşkil edir. Kafedraların ekspertləri tərəfindən şöbəmizə təqdim edilən testləri sistemə daxil edir, qüsurlu hesab olunanları isə çıxarırıq. Testlərin tərtibində keyfiyyət səviyyəsinin yaxşılaşdırılması üçün əlimizdən gələni əsirgəmir, ekspertlərdən buna diqqət göstərmələrini tələb edirik. Ciddi nəticələr var. İnanıram ki, zamanla bu problemi tam aradan qaldıracağıq”.

Apellyasiya Komissiyasının sədr müavini Gülnarə Vahabova da son vaxtlar aparılan yeniliklərin müsbət nəticəsi olduğunu qeyd etdi: “Ekspertlər testləri təhvil verən zaman onları imzaladıqları üçün ötən illə müqayisədə bu il şikayət edənlərin sayı xeyli azalıb: “Testlərin daha keyfiyyətli hazırlanması işimizin xeyli yüngülləşməsinə səbəb olub. Belə ki, komissiyaya şikayətlərin sayı kəskin şəkildə azalıb. Mövcud şikayətlərin sayı isə imtahanlara görə dəyişir. Elə gün olur 5-10, elə gün də olur ki, 90-100 arası apellyasiya şikayəti verilir. Onların içərisində əsaslıları ilə yanaşı, əsassızları da olur”.



Biz reportajı hazırlayarkən Əczaçılıq fakültəsinin akademik məsləhətçisi Gültəkin Acalova və İctimai səhiyyə fakültəsinin akademik məsləhətçisi Arzu Məmmədli imtahanın gedişini izləyirdilər. Hər iki məsul şəxs imtahan prosesindən razı qaldıqlarını, tələbələrin hər hansı problemlə üzləşmədiyini bildirdilər.



Nəzarətçilərdən Pəri Həsənova imtahan prosesinin sakit keçdiyini dedi: “Nəzarətçi olduğum müddətdə tək-tük qayda pozuntusu baş verib. Onların da qarşısını zamanında almış, lazımi tədbirlər görmüşük”.

Digər nəzarətçilər Nərgiz Zeynalova və Aytac İmanova da ciddi qayda pozuntularına rast gəlinmədiyini təsdiqlədilər.

İmtahan prosesinin necə keçməsi ilə bağlı tələbələrin də fikrini öyrəndik. Azərbaycan dilindən imtahan verən İctimai səhiyyə fakültəsinin 1-ci kurs tələbəsi Nihad Rufullayev, Əczaçılıq fakültəsinin 1-ci kurs tələbələri İnara Əzizova, Fatimə Abbaslı, Dinara Qasımova yaradılmış şəraitdən razılıq etdilər. Onlar heç bir müdaxilənin olmadığını, imtahan prosesinin şəffaf keçdiyini, uğur qazandıqlarını diqqətə çatdırdılar.

Tibb bacısı ixtisası üzrə 1-ci kurs tələbəsi Yasəmən Bünyadzadə də digər tələbə yoldaşları kimi, imtahan prosesindən razı idi.

Beləliklə, universitetimizdə imtahan prosesinin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar müsbət nəticələrini verməkdədir. Bu həm tələbələrin biliyinin düzgün və şəffaf qiymətləndirilməsi, həm də ali təhsil ocağımızın ictimai nüfuzunun yüksəldilməsi baxımından əhəmiyyətlidir.

**Qabil ABDULLAYEV**

# Hərbi tibb fakültəsinin əməkdaşları Serbiyada faydalı görüşlər keçirib

**Azərbaycan Tibb Universiteti Hərbi tibb fakültəsinin əməkdaşları – dekan, tibb xidməti polkovniki Məharət Rzayev, tibb xidməti polkovnik-leytenantı Saleh Əhmədov və mayor Cavid Ruhullayev iyunun 9-dan 12-ə kimi Serbiya Respublikasında ezamiyyətdə olublar.**





Belqrad Hərbi Tibb Akademiyası ilə tanışlıq məqsədi daşıyan səfər çərçivəsində onlar şəhərin Taşmaydan parkında Ulu Öndər Heydər Əliyevin abidəsini, sonra isə Serbiya şairi və yazıçısı Milorad Paviçin heykəlini ziyarət ediblər.

Xidməti ezamiyyət zamanı Belqradda hərbi tibbi təhsil üzrə mütəxəssislərlə işçi görüş keçirilib. Görüşdə Serbiyanın Hərbi Tibb İdarə rəisi, tibb xidməti general-mayoru, professor Dragan Dincicin rəhbərlik etdiyi heyət və Belqrad Müdafiə Universitetinin rektorunun beynəlxalq hərbi və universitetlərarası əməkdaşlıq üzrə müavini, polkovnik Srdyan Lyuboyeviç iştirak ediblər.

Professor D.Dincic Azərbaycan və Serbiya arasında hərbi tibbi təhsil sahəsində əməkdaşlığın artan xətlə davam etdiyini bildirərək, bu əlaqələrin qarşılıqlı təcrübə mübadiləsində də əks olunduğunu vurğulayıb.

Səfər zamanı əməkdaşlarımız Serbiya Tibb Akademiyası və Hərbi Tibbi Araşdırma İnstitutundakı şəraitlə yaxından tanış olub, həmçinin Belqrad Hərbi Tibb Akademiyasının Hərbi tibb fakültəsində tədris prosesini izləyiblər. Daha sonra Belqrad Hərbi Hospitalının şöbə və bölmələrindəki şəraitlə tanışlıq baş tutub. Görüşlər zamanı bu müəssisələrdə tibb xidmətinin təşkili barədə əməkdaşlarımıza ətraflı məlumat verilib. O cümlədən Hərbi Akademiyanın strukturu, tədris prosesi, eləcə də Serbiyada hərbi tibb kadrlarının tibb təhsili və hazırlığı mövzularında brifinq də keçirilib.

Səfər zamanı əməkdaşlarımız Nis şəhərində yerləşən Qarnizon Hospitala da baş çəkib, hospitalın yaranma tarixi, təhsil sistemi barədə maraqlanıblar.

Səfərin son günü Azərbaycanın Serbiyadakı fövqəladə və səlahiyyətli səfiri Kamil Xasiyevlə səfirliyin binasında görüş olub. Səfir Azərbaycanla Serbiya arasında strateji tərəfdaşlıq zəminində qurulan əlaqələrin yüksək səviyyədə olduğunu, birgə hərbi əməkdaşlığın bundan sonra da inkişaf etdiriləcəyini bildirib.



# Pediatrlarımız beynəlxalq əməkdaşlığa yeni töhfələr verir

**İyunun 12-15-də Becici şəhərində 2-ci EPA-UNEPSA (Avropa Pediatriya Assosiasiyası-Avropa Milli Pediatriya Cəmiyyətləri və Assosiasiyaları İttifaqı) Avropa Pediatriyasının Aktual Mövzuları Konqresi və 4-cü Monteneqro Beynəlxalq Profilaktik Pediatriya Konqresi keçirilib.**

Konqresdə 50-dən çox ölkədən pediatriya qurumları, ekspertlər və təcrübəçilər pediatriya, profilaktik tibb və ictimai səhiyyədə ən müasir mövzuları araşdırmaq üçün bir araya gəlib. İştirakçılar plenar iclaslarda, interaktiv seminarlarda və poster təqdimatlarında geniş spektrli innovativ mövzular - probiotiklərin perspektivləri, peyvəndlər, uşaqların psixi sağlamlığına dair yeni çağırışlar, xroniki qeyri-infeksion xəstəliklərin yaranmasının ilkin patofizioloji mexanizmləri, neonatologiya, endokrinologiya, pediatriyada təcili yardım, allerqologiya, immunologiya və digər mövzularda çıxış ediblər.

Konqresdə ölkəmizi təmsil edən Azərbaycan Pediatrlar Assosiasiyasının nümayəndələri, Azərbaycan Tibb Universitetinin alimləri – APA-nın sədri, t.ü.f.d., dosent Təranə Tağı-zadə (qrup rəhbəri), təşkilati işlər üzrə ekspert Kamran Muradov, t.ü.f.d., dosent Gülnarə İbrahimova, t.ü.f.d., dosent Sulduz Əhmədova, t.ü.f.d., dosent Ülviyyə Hacıyeva, t.ü.f.d., dosent Aytəkin Adilova, t.ü.f.d., dosent Fəxriyyə Məmmədova, t.ü.f.d., dosent Lalə Hidayətova, t.ü.f.d., dosent Könül Cəfərova və assistent Gülnarə Kərimova məruzə və poster təqdimatlarla çıxışlarında ölkəmizdə uşaq sağlamlığı sahəsində aparılan mühüm elmi-tədqiqat işlərini və müasir yanaşmaları beynəlxalq auditoriyanın diqqətinə çatdırıblar.

Bioetika təhsilinin Azərbaycan Tibb Universitetində formalaşması və tətbiq sahələrindən bəhs edən təqdimatda müasir tibbdə bioetikanın artan əhəmiyyəti qeyd olunub. Bildirilib ki, bu sahə həkim-pasiyent münasibətlərinin mənəvi və hüquqi aspektlərinin dərk olunmasında mühüm rol oynayır. Təqdimatda bioetika fənninin tədrisi, fənlərarası inteqrasiyalar və gələcək həkimlərin etik davranış baxımından formalaşdırılması istiqamətində görülən işlər təhlil olunub.

Azərbaycanı təmsil edən alimlər beynəlxalq tədbirdə fəal iştiraklarına görə rəsmi sertifikatlarla təltif edilərək yüksək dəyərləndiriliblər. Nümayəndə heyətinin fəallığı həm elmi cəhətdən maraq doğurub, həm də ölkəmizin pediatriya sahəsində beynəlxalq əməkdaşlığa verdiyi töhfəni bir daha nümayiş etdirib.

# Kafedra müdiri Qazaxıstan universitetinin dissertasiya şurasında

**İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının müdiri, dosent Yaqut Hacıyeva S.D.Asfendiyarov adına Qazax Milli Tibb Universitetinin Almatı şəhərində keçirilən Dissertasiya Şurasının iclasında üzv qismində iştirak edib.**



Səfər çərçivəsində Y.Hacıyeva dissertasiya müdafiəsi prosesində ekspert kimi çıxış edərək, ictimai səhiyyə sahəsində aparılmış tədqiqatların elmi səviyyəsini qiymətləndirib. O, Qazax Milli Tibb Universitetinin kollektivinə akademik məsləhətlər verib və doktorantların işlərinə rəy bildirib.

Səfərin əsas nəticələri sırasında akademik əməkdaşlıq istiqaməti xüsusi vurğulanmalıdır. Belə ki, ATU ilə Qazax Milli Tibb Universitetinin ictimai səhiyyə şöbələri arasında birgə tədqiqat layihələrinin və tələbə-müəllim mübadiləsi proqramlarının qurulması istiqamətində ilkin razılaşmalar əldə olunub. Bundan əlavə, hər iki universitet qarşılıqlı olaraq səhiyyə sistemi idarəetməsi və profilaktik tibb üzrə qabaqcıl kursların birgə hazırlanması ideyasını irəli sürüb. Epidemiologiya, səhiyyə siyasəti və icma sağlamlığının təşviqi sahələrində keçiriləcək birgə seminar-məşğələlərin təşkili üçün planlar müəyyənləşib.

# Nadir Rett sindromlu uşaq üzərində uğurlu əməliyyat icra olunub

**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında nadir Rett sindromlu 11 yaşlı qız uşağı üzərində uğurlu əməliyyat icra olunub. Əməliyyat zamanı xəstənin sol böyrəyindən mərcanvari daş xaric edilib.**



Əməliyyatı Urologiya kafedrasının müdiri, professor Rauf Nağıyev və kafedranın dosenti Rəşad Məmmədov həyata keçirib.

R.Nağıyevin bildirdiyinə görə, xəstə iki həftə ərzində əməliyyata hazırlanıb: "Günlük təkrarlanan epilepsiya hücumlarına məruz qalan, əqli və fiziki cəhətdən zəif inkişaf edən bir uşaq idi. O, Uşaq cərrahiyyəsi kafedrasının müdiri, professor Ramiz Poluxov və tibb elmləri doktoru, anesteziloq-reanimotoloq Esmira Nəsibova tərəfindən əməliyyata hazırlanıb.

Uğurla nəticələnən əməliyyatdan sonra xəstə özünü normal hiss edir. Əməliyyatdan 3 gün sonra evə buraxılıb və onda heç bir fəsad müşahidə olunmayıb. Hazırda nəzarətimizdədir".

Qeyd edək ki, nadir xəstəliklərdən biri olan Rett sindromu genetik xəstəlikdir, əsasən qız uşaqlarında rast gəlinir. Xəstəlik gen mutasiyası səbəbindən yaranır. Nadir hallarda oğlan uşaqlarında da görünür. Mental ləngimənin (əqli) əsas səbəblərindən biri Rett sindromudur. 20 000 qızdan 1-də rast gəlinir. Sonradan uşaqda reqressiya başlayır. Yəni nitqində ləngimə, davranışlarında pozğunluq və s.

Rett sindromu inkişaf etaplarında yaranan ləngiməylə üzə çıxır. Qaba və incə motorikanın geriləməsi, asosiallıq, qavrama və öyrənmədə yaranan problemlərlə özünü büruzə verir. Əsasən də vegetativ simptomlarla görünür. Belə uşaqlar normal hamiləlikdən dünyaya gəlir. Tipik Rett sindromunda körpələr ilk 6 ayına kimi normal inkişaf edir. Sonradan öyrəndiklərini itirir. Uşaqlar 12-18 ay sonra normal inkişafında ləngiyir. Məqsədyönlü əl hərəkətləri aradan qalxır, streotipiyalar araya girir. Epileptik tutmalar üzə çıxır.

Rett sindromunun dəqiq diaqnozu xəstəliyin klinikasına görə və laborator testə (genetik analiz) əsasən qoyulur. Rett sindromu 1980-cı ildə kəşf edilib. Nitqin itməsi, qıcolmalar, əqli ləngimə, klassik motor əl hərəkətlərin olması xəstəliyin əsas əlamətlərindəndir. 75% xəstələrdə klassik, 25%-də atipik Rett sindromunun variantları müşahidə edilir.

# Tədris Stomatoloji Klinikanın səyyar xidmətləri davam edir





Stomatoloji xidmətlərə əlçatanlığı artırmaq və cəmiyyətin ağız-diş sağlamlığını qorumaq məqsədilə əsas həkim heyəti və rezident həkimlərin iştirakı ilə Tədris Stomatoloji Klinikanın səyyar xidmətləri davam edir.

Azərbaycan Texniki Universitetində keçirilən aksiyada 100-dən çox tələbə müayinəyə cəlb olunub.

Bu silsilədən növbəti tibbi aksiya Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin 1 və 2 saylı Uşaq evi sosial xidmət müəssisələrində baş tutub. Aksiya zamanı uşaqların ilkin stomatoloji müayinəsi və gigiyenik maarifləndirmə işləri aparılıb, onların ağız-diş sağlamlığına dair fərdi tövsiyələr verilib. Xüsusi diqqət kariyes, diş əti xəstəlikləri, diş sırası qüsurları və digər ortodontik problemlərin vaxtında aşkarlanmasına yönəldilib. Aşkarlanan hallar qeydiyyata alınmaqla, müvafiq müalicə tədbirlərinin təşkili üçün ilkin addımlar atılıb.

Bu cür səyyar xidmətlər bir daha göstərir ki, stomatoloji xidmətlərin preventiv yönümlü təşkili gələcəkdə ciddi diş problemlərinin qarşısının alınmasında mühüm rol oynayır.

**Bu günlərdə Hollandiyanın Groningen şəhərində dünyanın ən nüfuzlu tələbə elmi tədbirlərindən biri – ISCOMS (International Student Congress Of (bio) Medical Sciences) konqresi keçirilib. Bu beynəlxalq tədbirdə 55 ölkədən 653 iştirakçı bir araya gələrək tibb və biotibb sahəsində elmi araşdırmalarını təqdim edib, ideya və təcrübə mübadiləsi aparıb.**

# Nümayəndə heyətimiz beynəlxalq konqresdə uğurla çıxış edib

ISCOMS yalnız elmi bir konfrans deyil – tələbələrin təşkil etdiyi, tələbələr üçün nəzərdə tutulmuş və elmi araşdırmaları təşviq edən qeyri-kommersiya təşkilatıdır. Konqresin builki mövzusu "Harmonious healthcare" – "Ahəngdar səhiyyə" adlanırdı. Mövzu qlobal səhiyyə problemlərinin həllində beynəlxalq əməkdaşlığın rolunu əks etdirməyi məqsəd qoymuşdu.

Konqres çərçivəsində dünyaca məşhur alimlərin – professorlar Peter Hegemann, Hans Clevers, Svetlana Mojsov, David Huang və Awa Marie Coll-Seck kimi mütəxəssislərin açar məruzələri təqdim olunub.

Azərbaycan Tibb Universitetini təmsil edən nümayəndə heyəti də konqresdə uğurla iştirak edib. Universitetin nümayəndəsi olaraq konqresdə Tibb və sağlamlıq elmləri təhsili kafedrasının baş müəllimi, II Müalicə-profilaktika fakültəsinin dekan müavini Bənövşə Hüseynova "Teletibb vasitəsilə həkimlər arası və həkim-pasiyent arası ünsiyyət" araşdırma mövzusu ilə çıxış edib. II Müalicə-profilaktika fakültəsinin V kurs tələbəsi Fəridə Ağayarlı "Süd vəzi xərçəngində androgen reseptorlarının ifadəsinin proqnostik rolu: Azərbaycan kohortundan baxış" mövzusu ilə sözlü təqdimatla, V kurs tələbəsi Selcan İsmayılova "COVİD-19 pandemiyası zamanı monitor istifadəsinin artması ilə bağlı məktəblilər arasında miopiyanın proqressivləşməsinin öyrənilməsi" və IV kurs tələbəsi Aygün Məhərrəmova "Xronik obstruktiv ağciyər xəstəliyi və ağciyər vərəmi: bronxodilator terapiyanın müqayisəli analizi" mövzularında poster təqdimatlarla çıxış ediblər.

Əlavə olaraq, F.Ağayarlı "Hamiləlik dövründə şəkərli diabetin dölün mədəaltı vəzi inkişafına təsiri" adlı layihəsi ilə ISCOMS-un Tədqiqat Təqaüdü Proqramına (Research Fellowship) seçilib. Bu tədqiqat təqaüdü üçün dünya üzrə 24 tələbə seçilib və Fəridə onlardan biri olaraq bu proqram çərçivəsində Hollandiyada elmi tədqiqatını aparmaq imkanı əldə edib.

Konqresdə praktiki seminarlar (workshoplar), Pre-course Day və digər inkişaf yönümlü proqramlar da təşkil olunub. İştirakçılarımızdan



B.Hüseynova "Təməl həyat dəstəyi", S.İsmayılova "Cihazla perfuziya" və "Plastik cərrahiyyə: toxuma genişləndiriciləri necə işləyir?", A.Məhərrəmova "Bağırsaq anastomozu" və "Plastik cərrahiyyə: Toxuma genişləndiriciləri necə işləyir?", Simge Kıran isə "Ürəyin cərrahi anatomiyası və atrial fibrilasiyanın invaziv müalicəsi" adlı praktiki seminarlarda aktiv iştirak ediblər.

Eyni zamanda F.Ağayarlı və S.Kıran konqresdə ISCOMS səfiri kimi də çıxış ediblər.

Azərbaycan nümayəndə heyətinin iştirakı konqresdə böyük maraq doğurub, təqdim olunan elmi işlər aktuallıq və elmi yanaşma baxımından yüksək qiymətləndirilib.

Bu cür beynəlxalq tədbirlər həm ölkəmizin elmi potensialını nümayiş etdirir, həm də tələbələrə yeni üfüqlər açır.

# ATU jurnalı haqqında vebinar keçirilib

**Elmi Tədqiqatların İdarəolunması Departamentinin təşəbbüsü ilə zoom platformasında "Azərbaycan Tibb Universitetinin Jurnalı" (www.atuj.az) saytından istifadə qaydaları haqqında vebinar təşkil olunub.**




Vebinarda adıçəkilən departamentin koordinatoru, Patoloji fiziologiya kafedrasının dosenti Sevinc Pənahova www.atuj.az saytından istifadə barədə ətraflı məlumat verib. Saytda qeydiyyatdan keçmək qaydaları, məqalələrə qoyulan tələblər, əlyazmaların sayta yüklənməsi, ədəbiyyat siyahısının hazırlanması, rəyə göndərilmə və s. məsələlər əyani şəkildə izah edilib. Həmçinin EBSCO platformasından distant olaraq istifadə qaydaları, EBSCO və Clarivate tərəfindən keçirilən vebinarlar haqqında məlumat verilib.

# Əməkdaşımız Avstriyada məruzə oxuyub

**Azərbaycan Tibb Universitetinin Epidemiologiya və Biostatistika kafedrasının assistenti Nazxanım Qasımova 25-31 may tarixlərində keçirilmiş "İnfeksion xəstəliklər üzrə Salzburq WEILL CORNELL seminarı"nda iştirak edib.**




Avropa və müxtəlif ölkələrdən 40 həkim-mütəxəssisin qatıldığı tədbir infeksion xəstəliklər üzrə ən son protokollar və yeniliklərə həsr olunub.

Əməkdaşımız N.Qasımova seminarda "Ağırlaşmış yumşaq toxuma infeksiyalarının idarə edilməsi" mövzusunda məruzə ilə çıxış edib. Tədbir zamanı həmçinin sertifikasiya keçirilib. Seminarın sonunda isə iştirakçılar üçün konsert proqramı təşkil olunub.

Qeyd edək ki, seminar Avstriyanın Salzburq şəhərində yerləşən tarixi Arenberq qəsrində baş tutub.

# Onurğamız - həyatımızın sütunudur

## Vaqif Cəlilov: Skoliozla yaşamaq çətin olsa da, düzgün müalicə və dəstək bir çox insanı normal həyata qaytarır

**Beynəlxalq Skolioz Maarifləndirmə Günü hər il iyun ayının son şənbə günü qeyd olunur. 2013-cü ildə Böyük Britaniya Skolioz Assosiasiyası (SAUK) tərəfindən skolioz haqqında ictimaiyyətin məlumatlılığını artırmaq, təhsili təşviq etmək və bu vəziyyətdən təsirlənənləri birləşdirmək üçün maarifləndirmə işinə başlanılıb. Bu münasibətlə konfranslar keçirilir və bir çox mütəxəssislər bir araya toplanır.**



Bu gün geniş yayılmış, lakin tez-tez səhv başa düşülən onurğa sütunu vəziyyəti haqqında məlumatlılığın artırılmasına həsr edilir. Dünyada hər il skolioz milyonlarla insana təsir edir, lakin həmişə bu problem haqqında yanlış təsəvvürlər formalaşır. Bu gün biz skoliozun nə olduğunu, onun səbəblərini, simptomlarını, diaqnozunu, müalicə variantlarını, erkən aşkarlanma və maarifləndirmənin əhəmiyyətini işıqlandırmağa çalışacağıq.

Sadə dildə desək skolioz, onurğanın yana doğru "S" və ya "C" formalı anormal əyriliyi ilə xarakterizə olunan tibbi vəziyyətdir. Sözün etimologiyası yunan dilindəki "skolios" yəni "əyri" sözündən qaynaqlanır. Bu əyrilik yüngüldən ağır formalara qədər dəyişə və hər yaşda baş verə bilər. Lakin ən çox uşaqların böyümə dövrlərində inkişaf edir.

Skoliozun dəqiq səbəbi məlum deyil və növündən asılı olaraq dəyişə bilir. Bununla belə, bəzi ümumi səbəblər kimi doğuş zamanı mövcud olan anadangəlmə onurğa anomaliyaları, serebral iflic və ya əzələ distrofiyası, sinir-əzələ xəstəlikləri göstərilir. Məlum olmayan səbəbdən inkişaf edən və xüsusilə yeniyetmələr arasında ən çox rast gələnən isə idiopatik skolioz adlanır.

Skolioz xüsusilə erkən mərhələlərdə nəzərə çarpan simptomlara səbəb olmaya bilər. Amma əyrilik irəlilədikcə qeyri-bərabər çiyinlər və ya çanaq, bir çiyin bucağının digərindən daha qabarıq görünməsi, qeyri-bərabər omba və ya sinə kimi simptomlar əmələ gəlir. Qeyd etmək vacibdir ki, simptomların şiddəti insandan-insana çox dəyişə və müalicə edilmədikdə zamanla ağırlaşa bilər.

Skoliozun diaqnozu adətən ilkin olaraq fiziki müayinədən ibarətdir, onurğanın əyriliyi skaliometrlə qiymətləndirir, xəstənin duruşu, qaməti müşahidə edilir və hər hansı görünən asimmetriya əlamətləri axtarılır. Əgər şübhə varsa, diaqnozu təsdiqləmək, əyriliyin dərəcəsini (Cobb dərəcəsini) və yerini müəyyən etmək üçün rentgen müayinəsi aparılır.

Skoliozun müalicəsi əyriliyin şiddəti, xəstənin yaşı və vəziyyətin irəliləməyi kimi müxtəlif amillərdən asılıdır. Əyrinin irəliləmədiyi yüngül skolioz hallarında, xüsusilə böyüməkdə olan uşaqlar üçün müntəzəm monitorinq kifayətdir.

Orta dərəcədə skoliozlu və yüksək inkişaf riski olan yeniyetmələr üçün əyriliyin daha da artmasını dayandırmağa kömək etmək məqsədilə isə ortez və ya hamının başa düşdüyü kimi desək, korset istifadəsi çox faydalıdır. Skoliozun inkişafı yetkinlik dövründən əvvəl uşağın sürətli böyüməsi dövründə başladıqda, ortezlər daha təsirli olur.

Həmçinin fiziki terapiya məşqləri duruşu yaxşılaşdırmağa, əzələləri gücləndirməyə və skoliozla əlaqəli narahatlığı azaltmağa kömək edə bilər. Burada ən çox istifadə olunan metodlardan biri Schroth metodudur. Metodun məqsədi əyriliyin daha da irəliləməsinin qarşısını almaq üçün bədən mexanikasını yaxşılaşdırmaq və onurğa sütununu sabitləşdirməklə tarazlıq və sabitlik yaratmaqdır. Bir sıra tədqiqatlar bu metodun idiopatik skoliozlu yeniyetmələrdə Cobb bucağının azaldılmasına və həyat keyfiyyətinin yaxşılaşdırılmasına əhəmiyyətli təsir etdiyini ortaya çıxarıb.

Skoliozun ağır vəziyyətlərində, xüsusilə əyrilik irəlilədikdə, əhəmiyyətli simptomlara səbəb olduqda və ya orqan funksiyasına təsir etdikdə isə, cərrahi müdaxilə tövsiyə edilə bilər.

Skoliozun erkən aşkarlanması effektiv müalicə üçün vacibdir. Uşaqlıq və yeniyetməlik dövründə müntəzəm müayinələr skoliozu erkən aşkar etməyə və lazım olduqda vaxtında müdaxilə etməyə imkan verər. Bundan əlavə, skolioz haqqında məlumatlılığın artırılması yayılan mifləri və yanlış fikirləri aradan qaldırmaq və skoliozla yaşayan insanlar üçün anlayış və dəstəyi təşviq etmək üçün vacibdir. Məktəblərdə profilaktik baxışların keçirilməsi, valideyn və müəllimlərin maarifləndirilməsi, kompüter və telefon qarşısında uzun müddət əyilmiş vəziyyətdə oturmamaq, fiziki aktivlik (xüsusilə üzgüçülük və duruş məşqləri) onurğa sağlamlığını qorumaq üçün əsas vasitələrdəndir.



Skoliozla yaşamaq çətin ola bilər, lakin düzgün müalicə və dəstək ilə skoliozu olan bir çox insan tam və aktiv həyat sürür. Skoliozlu insanlar müalicə planlarına riayət etmək və müntəzəm məşq və yaxşı duruş vərdişləri vasitəsilə ümumi onurğa sağlamlığını qorumaq üçün fizioterapiya və tibbi reabilitasiya mütəxəssisləri ilə sıx işləməlidir.

Bəzi hallarda valideynlər uşaqlarında skolioz əyriliyini müşahidə etdikdə onları özlərinin marağında olduğu və büdcələrinə uyğun idman növünə qoyurlar. 2024-cü ildə Fizioterapiya və tibbi reabilitasiya fakültəsinin II kurs tələbələri ilə Tələbə Elmi Cəmiyyətində skoliozun monitorinqinə aid apardığımız bir tədqiqata professional idmanla məşğul olan atlet qızlar və universitetimizin I, II kurs tələbələrini cəlb etdik. Tədqiqatın nəticələri çox maraqlı oldu. Ümumi mənzərədə atlet qızlar arasında skoliozun say intensivliyi digər qrupa nisbətən cüzi az olsa da, onlar arasında da idman növünə spesifik skolioz əyriliklərinin olması diqqətimizi çəkdi. Buradan da belə bir nəticəyə gəlindi ki, bəzən idman növləri skoliozu müalicə etmir, əksinə, simptomların kəskinləşməsi, spesifik əyriliklərin meydana çıxmasına səbəb olur. Ona görə də skoliozla qarşılaşan insanların mütəxəssis rəyi ilə təyin olunmuş məşq proqramlarını keçməsi məsləhət görülür.

Onurğamız həyatımızın sütunudur - onu düz tutmaq sağlam yaşamaq deməkdir.

**Vaqif CƏLİLOV,**
*Fizioterapiya və tibbi reabilitasiya kafedrasının assistenti, t.ü.f.d*

# Tələbələrimiz Xankəndi finalında yüksək nəticə göstərib

**17 iyun 2025-ci il tarixində Xankəndi şəhərində səhiyyə işçiləri arasında "Sağlamlığa Doğru Qaç!" adlı genişmiqyaslı qaçış yarışının final mərhələsi keçirilib.**




Azərbaycan Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin təşəbbüsü və təşkilatçılığı, TƏBİB, Azərbaycan Atletika Federasiyası (AAF) və "Zəfər" Qaçış Klubunun dəstəyi ilə keçirilən tədbir 17 iyun – Tibb İşçilərinin Peşə Bayramına həsr olunmuşdu.

Layihənin məqsədi ölkə səhiyyə işçiləri arasında sağlam həyat tərzinin təşviqi, fiziki aktivliyin artırılması, asudə vaxtın səmərəli təşkili və həmkarlar arasında birliyin gücləndirilməsi idi.

1 iyun tarixində Bakıda keçirilmiş ilkin mərhələdə Bakı, Sumqayıt, Abşeron, Şuşa və Zəngilan rayonlarının 70-ə yaxın tibb müəssisəsindən 500-ə yaxın səhiyyə işçisi, həmçinin Azərbaycan Tibb Universiteti, 1 və 2 saylı Bakı Tibb, Sumqayıt Tibb kolleclərindən tələbələr iştirak etmişdi. Bu mərhələdə kişilər arasında tələbələrimizdən Vüsal Seyidov I, Toğrul Abdullayev III yerə layiq görülmüşdü. Qadınlar arasında isə tələbələrimiz Məsha Palar I, Zülfiyyə Məmmədli isə II yeri qazanmışdı. Ümumilikdə 8 region üzrə keçirilmiş yarışların nəticəsinə əsasən, 48 nəfər final mərhələsində iştirak etmək hüququ əldə etmişdi.

Final mərhələsinin açılış mərasimində bir sıra rəsmi şəxslər – AHİK sədri Sahib Məmmədov, Milli Məclisin Səhiyyə Komitəsinin sədri, akademik Əhliman Əmiraslanov, səhiyyə nazirinin müavini İlqar Qasımov, Prezidentin Xankəndi, Ağdərə və Xocalı rayonları üzrə xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov və Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev çıxış edərək iştirakçılara uğurlar arzulayıblar.

Daha sonra yarışa start verilib. Xankəndinin dağlıq relyefi və enişli-yoxuşlu yollar marafonçulara əlavə fiziki çətinliklər yaratsa da, iştirakçılar 5 km-lik məsafəni əzmkarlıqla başa vurublar. ATU-nun tələbələri güclü olduqlarını burada da sübut ediblər. Belə ki, qadınlar arasında Məsha Palar finişə birinci çatıb, Zülfiyyə Məmmədli isə ikinci olub. Kişilər arasında Vüsal Seyidov bu dəfə finişə üçüncü, Toğrul Abdullayev isə 5-ci çatıb.

Yarışın yekunlarına əsasən, kişi və qadın kateqoriyalarında I, II və III yerlərin qalibləri diplom, medal, kubok və pul mükafatı ilə təltif olunublar. Tədbir çərçivəsində Azərbaycan Tibb Universitetinin "Çinar" rəqs ansamblının rəngarəng çıxışı alqışlarla qarşılanıb.

**İctimai fənlər kafedrasının dosenti Gülnarə Səfərovanın 60 yaşı tamam olub. Dəyərli ziyalı, fəlsəfə üzrə fəlsəfə doktoru G.Səfərova uzun illərdir ki, təhsil sistemində çalışaraq, gənc nəslin dünyagörüşünün formalaşması, analitik təfəkkürə sahib mütəxəssislər kimi yetişməsi üçün əmək sərf edir.**

# Səmimi və xeyirxah insan, obyektiv və prinsipial müəllim



Onun elmi-pedaqoji fəaliyyəti sadəcə elmi məqalələr, dərsliklər və mühazirələrlə məhdudlaşmır. G.Səfərova tələbələrinə həyatın fəlsəfəsini dərindən öyrətməklə yanaşı, onların daxili dünyasında iz buraxmağı bacaran müəllimlərdəndir. Gülnarə xanım təkcə pedaqoq kimi deyil, eyni zamanda ətrafındakı insanlara münasibəti, sadəliyi, dürüstlüyü, insani dəyərlərə verdiyi önəmlə də seçilir. Həmkarları onu obyektiv, prinsipial, səmimi və xeyirxah insan kimi tanıyırlar.

Hörmətli Gülnarə xanım! Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, uzun ömür, möhkəm cansağlığı, ailə səadəti, elmi-pedaqoji fəaliyyətinizdə daha böyük uğurlar arzulayırıq.

Sizin timsalınızda təhsilimizin dəyərini, müəllimin ali adını və ziyalılığın şərəfini görür, tələbələrinizin sizin yolunuzu davam etdirməsini arzulayırıq.

**İctimai fənlər kafedrasının əməkdaşları**

**Dünyadan bizimkilər**

# ATU-da dünyanın hər yerindən tələbələr təhsil alır

## Onlar Bakını, mədəniyyətimizi və mətbəximizi bəyəndiklərini deyirlər

**Xarici ölkələrdən Azərbaycan Tibb Universitetinə təhsil almaq üçün üz tutanların sayı hər il artır. Bu da beynəlxalq arenada ATU-nun reytinqinin yüksəlməsi ilə əlaqədardır. Rubrikamızın bu dəfəki qonaqları Yaxın Şərq, Afrika və Cənubi Asiyadan olan tələbələrdir.**



**Zayn Davoud** Fələstin vətəndaşıdır. Paytaxt Qəzzada anadan olub. Müharibə başlayanda evlərinə mərmi düşüb, dağılıb. Hazırda ailəsi qaçqın kimi Misirdə yaşayır.

Ötən il ATU-ya daxil olan Zayn, Azərbaycana necə gəlib çıxıb? Ali təhsil üçün niyə məhz Azərbaycan Tibb Universitetini seçib?

Özünün bildirdiyinə görə, təqaüdlə oxumaq üçün internetdə axtarış aparıb: "Apardığım axtarışlar öz bəhrəsini verdi. Gördüm ki, sizdə - Tibb Universitetində təqaüdlə oxumaq mümkündür. Bakıdakı dost-tanışlarla əlaqə saxladım. ATU-nun yaxşı bir ali təhsil müəssisəsi olduğunu bildirdilər. Ona görə də sizin məmləkəti seçdim. Qəbul üçün 100 mümkün baldan 98 bal topladım və müsabiqədən keçdim.

İlk vaxtlar çətinlik çəkirdim. Amma hər şey yoluna düşdü. Müəllimlər bizə dostları kimi yanaşır. Yardımsevərdirlər. Özüm universitetin yataqxanasında qalıram. Şəraitdən də razıyam. Bakı gözəl şəhərdir. Atəşgahda, Heydər Əliyev Mərkəzində, Dənizkənarı bulvarda, Şəhidlər xiyabanında olmuşam".

Zaynın atası da həkimdir, oftalmoloqdur. İstəyib ki, oğlu onun davamçısı – oftalmoloq olsun. Amma övladı atanın istəyini qəbul etməyib: "Tərəddüd etdim. İstəmədiyimi bildirdim. Atam gördü ki onun təklifi ilə razılaşmıram, tövsiyə etdi ki, özün seç, ancaq cərrah olma. Çünki cərrahlıq çox olduqca çətindir. Mən də atamın tövsiyəsini nəzərə alıb, gələcəkdə dermatoloq olmaq niyyətindəyəm".

Zayn ATU-nu bitirdikdən sonra öz ölkəsinə qayıtmaq, orada insanların sağlamlığının keşiyində durmaq istəyir: "Çünki Fələstində həkimlərə böyük ehtiyac var. Amma təəssüf ki, müharibə fəlakət gətirdi ölkəmizə. Hər şey, infrastruktur dağılıb. Təchizat belə yoxdur. Əgər mən təhsilimi bitirənə qədər müharibə dayansa, öz ölkəmə qayıdacaq, insanlara tibbi yardım edəcəyəm. Ölkəmin yenidən qurulmasında iştirak etmək istərdim".

Zayn mətbəximizi də bəyənib. O, çox yarpaq dolmasını xoşladığını deyir. Bildirir ki, yarpaq dolması onlarda da bişirilir. Amma içini ət deyil, yarma və ya düyü ilə doldururlar.



**Prakriti Aryal** Nepal Federativ Demokratik Respublikasının vətəndaşıdır. Qardaşı da təqaüdlə Bakıda - Mühəndislik Universitetində təhsil alır: "Belə bir proqramın olması barədə qardaşımdan məlumat aldım və Bakını seçməyimə səbəb oldu. Universitetin yataqxanasında qalıram. Şəraitindən razıyam. Balaca qardaşım da tibbə maraqlanır. Onun 17 yaşı var. Tibb Universiteti, buranın şəraiti haqqında da ona məlumat vermişəm. Əgər imtahanları yaxşı verə bilsə, çox güman ki, o da Bakıya gələcək. Gələcəkdə ginekoloq olmaq istəyirəm. İnsanlarınız yardımsevər və istiqanlıdırlar. İlk dəfə bura gələndə aeroportda polislər mənə bələdçilik etdi. Mənə lazımi köməyi göstərdilər".

Prakriti hindlidir. Azərbaycanın bir müsəlman ölkəsi, insanlarının mehriban və yardımsevər olduğunu bildiyi üçün buranı seçib. Səyahət etməyi çox xoşlayır. Şahdağda olub. Bu dağa səyahətini maraqla xatırlayır: "Şahdağ çox möhtəşəmdir. İlk dəfə əlim qara Şahdağda dəydi. Gözəl və maraqlı hisslər yaşadım. Qarla əlimi və üzümü yudum. Amma inanılmaz dərəcədə üşüdüm. Bir az qorxdum da. Fikirləşdim ki, birdən-birə soyuq iqlim şəraitinə düşdüyüm üçün xəstələnə bilərəm. Şükür, bir şey olmadı. Qar üstündə fotomu çəkdirib valideynlərimə və rəfiqələrimə göndərdim. Rəfiqələrimdən çoxu mənim yerimə olmaq istədilər".

O, Bakıda Kirişna məbədində də olub, oranı ziyarət edərkən qəribə hisslər yaşayıb.

Prakriti də mətbəximizi bəyənir. Saciçi, şaurma, dönər və plov yeməyi sevir. Gələcəkdə bizim yeməklərdən bişirməyi öyrənmək istəyir. Dilimizlə də maraqlanır.

**Hafeez Hassan** isə Uqandanın paytaxtı Kampalada anadan olub. Anestozoloq üzrə ilkin təhsilini Hindistanda aldıqdan sonra Bakını seçib. O da təqaüdlə Azərbaycan Tibb Universitetində təhsil alır:



"ATU barəsində məlumatı internet vasitəsi ilə əldə etdim. Şəraitdən və təhsildən razıyam. Müəllimlərimdən Elmira Gərayzadə, Elvina Qulamova, Günel Rüstəmova və digərləri bizə öz doğmaları kimi yanaşır.

Bakıda ilk diqqətimi çəkən insanların mehriban, qonaqpərvər olmalarıdır. Şəhərinizin gözəlliyi, memarlığı, ən əsası isə təhlükəsizliyi daha çox məni məmnun etdi. Burada peyntbola gedirəm. Bu idman növü çox xoşuma gəlir.

Yeməkləri isə marketdən ərzaq alıb özüm bişirirəm. Kababınızı xoşlayıram. Dönər və şaurma da yeyirəm. Düyüdən sizin plova oxşar yemək bişirirəm. Dadlı bişirə bilməsəm də, hər halda oxşadıram. Yarpaq dolmanız da çox dadlı olur".

Hafeez gələcəkdə ya beyin cərrahı, ya da kardioloq olmaq istəyir. Bu sahələrdə uğur qazanacağını düşünür.

**Qabil ABDULLAYEV**

**Allah rəhmət eləsin!**

**Azərbaycan Tibb Universitetinin rəhbərliyi və kollektivi Müalicə-profilaktika fakültəsinin Uşaq xəstəlikləri kafedrasının keçmiş müdiri, Azərbaycan Respublikasının əməkdar həkimi, tibb elmləri doktoru, professor Nəsibə Ağa İsmayıl qızı Hüseynovanın vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.**

Əczaçılıq toksikologiyası və kimya kafedrasının əməkdaşları Hüsniyar Çəltikova və Nuridə Novruzova bacılarına ataları

**Hacı müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

I Mamalıq və Ginekologiya kafedrasının əməkdaşları kafedranın əməkdaşı Lalə Musayevaya bibisi

**Zərxaranın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının əməkdaşları kafedranın laborantı İndira Abbasovaya anası

**Sona Vəliyevanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

"Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0012
Sayı 800